**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ƏLİMUXTAR HƏSƏN OĞLU MUXTAROV**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA NİZAMİ GƏNCƏVİ OBRAZI

5716.01–Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiyaişi AMEA-nın Gəncə Bölməsinin Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nizami Qulu oğlu Cəfərov**
*AMEA-nın müxbir üzvü,*
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Tehran Əlişan oğlu Mustafayev**
*filologiya üzrə elmlər doktoru, professor*

**Yaqub Məhərrəm oğlu Babayev**
*filologiya üzrə elmlər doktoru*

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin Müasir Azərbaycan Ədəbiyyatı kafedrası

Müdafiə "_29___" _01________ 2015-ci il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı, H.Cavid prospekti, 115, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə).

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" ________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** İmamverdi Yavər oğlu Həmidov

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünya mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan Nizami Gəncəvi yaradıcılığı Azərbaycan bədii-estetik fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir. XX əsrdə şairin yaradıcılığının öyrənilməsinə marağın və ehtiyacın artması ilə yanaşı, şairin ədəbi şəxsiyyəti özü də ədəbiyyatın bədii obrazına çevrilmişdir. Bu ədəbi-bədii nümunələrdə yazarların təxəyyülünü qidalandıran mənbələrdən birincisi şairin öz poemaları olduğu kimi, ilk ədəbi qaynaqlar da əhəmiyyətli rol oynayırdı. Günümüzə qədər Nizami Gəncəvi obrazının təsvirinə həsr olunmuş kiçik və irihəcmli bədii nümunələr məhz həmin ilkin mənbələr əsasında yazılmışdırsa da, şairin obrazının dövrün ictimai siyasi təfəkkürünün prizmasından işıqlandırılması da yazarların təxəyyülünə təsirsiz ötüşməmişdir. Buna görə də şairin obrazının bədii əsərlərdə inikasının hərtərəfli öyrənilməsi və obyektiv ədəbiyyatşünas nəzər-nöqtəsindən keçirilməsi bugünkü elmimizin qarşısında duran aktual məsələlərdəndir.

Tədqiqat işi yazılı ədəbiyyatın bütün janrlarında şairin obrazının təsvirinin bədii cizgilərinin öyrənilməsinə həsr olunduğu üçün janrlararası fikir mübadiləsinin üzə çıxarılmasına, bəhrələnmə, iqtibas məsələlərinə nəzər salmağa, mərhələlərarası oxşarlıq və fərqlərin aşkarlanmasına imkan verir. Azərbaycan poeziyasında yeri gəldikcə Nizami surətinin təsviri, Nizami şəxsiyyətinin tərənnümü XX əsrə kimi özünü göstərmişdir. XIX əsr ədəbiyyatında Nizami xatirəsinin orta əsrlər poeziyasından fərqli cizgiləri üzə çıxır. Əgər orta əsrlərdə Nizaminin mənən yaşadığı, hər zaman şairlərin qəlbində bir ustad kimi diri olduğu vurğulanırdısa, XIX əsrdə ilk dəfə olaraq Nizami xatirəsinə laqeydlik təəssüflə qeyd olunurdu ki, bu da Seyid Əzim Şirvani, Əli Nəzmi və başqa sənətkarların yaradıcılığında öz bədii ifadəsini tapmışdır.

XX əsrin əvvəllərində də Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının yaradılmasında XIX əsr poeziyasındakı yanaşmalar və cizgilər müşahidə olunur. Azərbaycan sovet ədəbiyyatının yaranması ilə başlayan şairin obrazı ideologiyanın raporuna çevrilir. Nizami yaradıcılığının məzmununun obyektiv təhlili böyük təhriflərə uğrayır. Bu cəhətdən ən ciddi tənqidə məruz qalan əsərlərdən biri Mehdi Hüseynin "Nizami" dramıdır. Lakin hələ öz dövrünün ədəbi-tənqidinin obyektiv yanaşmasının mənfi qiymətini alan "Nizami" dramının bugünkü tədqiqatlarda aldığı qiymətlər bəzən inandırıcı görünmür. Məsələn, BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müəllim kollektivi tərəfindən yazılmış "Müasir

Azərbaycan ədəbiyyatı" dərsliyndə göstərilən "əsərin bu gün də bədii, tərbiyəvi əhəmiyyətini itirməməsi"[1] fikrinə oxucunu inandırmaq çətindir. Bunları nəzərə alaraq bədii əsərlərdə şairin ideoloji baxışlarının, həyat və yaradıcılığının ən ali məqsədlərinin doğru işıqlandırılması istiqamətində gördüyümüz işlər mövzunun hələ də aktual olaraq qaldığını, bu istiqamətdə tədqiqatların davam etdirilməsinə zərurətin olmasını göstərir.

**Mövzunun işlənmə dərəcəsi.** İlk növbədə qeyd olunmalıdır ki, N.Gəncəvi obrazı hər üç ədəbi növü əhatə etməklə bu günə qədər sitemli tədqiq olunmamışdır. H.Orucəli "Nizami Gəncəvini tədqiq edən Azərbaycan alimləri" əsərində 1920-ci ilə kimi Nizami tədqiqatçılarının adını göstərərək yazırdı: "İndiki vəziyyətdə 1920-ci ilə qədər Nizaminin yaradıcılığı ilə məşğul olan məşhur Azərbaycan alimləri bunlardır: Lütfəlibəy Azər (1711-1781), Abbasqulu ağa Bakıxanov "Qüdsi" (1794-1846), Mirzə Fətəli Axundov (1812-1878), Mirzə Məhəmməd Axundov, Məhəmmədəli Tərbiyət və Firudun bəy Köçərli (1863-1920)".[2]

Firidun bəy Köçərli ilk dəfə olaraq Nizami Gəncəviyə həsr olunmuş bədii sənət nümunəsindən bəhs açaraq Mirzə Məhəmməd Axundzadənin şeirlərini əsərinə daxil etmişdir. Şeirin məzmununun Nizaminin qəbrinin və türbəsinin dağılması haqqında olduğunu da "münasibi-hal deyə"[3] vurğulayaraq bu məsələyə öz münasibətini daha da qüvvətli bildirirdi.

Nizami Gəncəvi obrazının ədəbiyyatda bədii inikasının öyrənilməsi tarixi bu əsərlərin yazıldığı dövrlə üst-üstə düşür. Sistemli və davamlı olaraq şairin surətinin ədəbiyyatda və incəsənətdə əksi onun 800 illik yubileyinə hazırlıq ərəfəsinə təsadüf edir. Elə bu dövrdən də etibarən artıq ədəbi tənqid yazılan əsərlərə öz münasibətini bildirir, gələcək yaradıcılıq üçün yazıçı və şairlərin işini stimullaşdırırdı. "Ədəbiyyat" qəzetinin 18 May 1941-ci il tarixli nömrəsində C.Cahanbaxşın "Nizamiyə dair iki hekayə"[4] adlı ədəbi-tənqidi məqaləsi Ə.Məmmədxanlı və M.Əlizadənin hekayələrinə həsr olunmuşdur. Eyni zamanda Mehdi Hüseynin "Nizami" dramı haqqında M.İbrahimov, M.A.Dadaşzadə[5], Əziz Şərif[6] və başqa ədəbiyyatşünasların pyesdəki Nizami obrazı ilə bağlı gəldikləri elmi qənaət

---

[1]Müasir Azərbaycan ədəbiyyatı. I cild, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı: Dövlət Universiteti, Bakı, 2007, s.402

[2]Orucəli H. Nizamini tədqiq edən Azərbaycan alimləri. Bakı: Yazıçı, 1979,s.161.

[3]Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları, I cild, Bakı, 1978, s.595.

[4]Cahanbaxş C. Nizamiyə dair iki hekayə. "Ədəbiyyat" qəz., 1941, 18 may.

[5]Dadaşzadə M.A. Nizami dramı haqqında, "Kommunist" qəz., 1942, 19 avqust.

[6]Şərif Ə. Nizami dramı, Azərbaycan jurnalı, 1979, № 6, s.117.

mühüm əhəmiyyət kəsb edir..

Həmid Araslının ədəbi-elmi fəaliyyəti bədii ədəbiyyatımızda Nizami Gəncəvi obrazının formalaşdırılması baxımından xüsusilə diqqətəlayiqdir. Nizami Gəncəvi yaradıcılığını "İlkin Azərbaycan renessansının zirvəsi" kimi elmi təhlilə cəlb edən tədqiqatçı uzunmüddətli və zəngin araşdırmaları sayəsində dahi şairin həyat və yaradıcılığını bədii-publisistik üslubla işıqlandıran "Şairin həyatı"[1] adlı sənədli povestini də yazmışdır.

M.Mübarizin "Dahi sənətkarın obrazı" məqaləsi (1940) öz dövründə Həmid Araslı, M.S.Ordubadi kimi nizamişünasların əsərləri ilə bərabər səviyyədə bədii təxəyyülə qüvvət verə bilən əsərlərdən idi. Məhəmməd Əmin Rəsulzadə, Azadə Rüstəmova, Rüstəm Əliyev kimi nizamişünas tədqiqatçılar elmi əsərləri bədii təfəkkürdə Nizami obrazının formalaşdırılması istiqamətində əhəmiyyətli rol oynamışdır. Dissertasiyada adı çəkilən alimlərin bu istiqamətdə gördükləri işlərə geniş nəzər salınmışdır.

Yəhya Seyidov,[2] Ziya Bünyadov və Əbülfəz Rəhimov,[3] Yavuz Axundlu,[4] Vidadi Qafarlı,[5] İsa Həbibbəyli,[6]T.Kərimli,[7]X.Yusifli,[8]Nizami Cəfərov,[9] Rüstəm Kamal,[10] Tahirə Məmməd,[11] Zəminə Axundova,[12] Şəlalə Hüseynova,[13] S.Şükürov, [14] M.Seyidov,[15] İ.Abbasov[16] və başqa alimlər istər

[1]Araslı H. Şairin həyatı. Bakı, 1940.

[2]Seyidov Y. Mehdi Hüseyn. Bakı: Yazıçı.1979.

[3]BünyadovZ, Rəhimov Ə. Tarixi həqiqətlər...Yoxsa təhriflər? ,Azərbaycan jurnalı, Bakı, 1989, №4, 164-181 s.

[4]Axundlu Y. Məmməd Səid Ordubadi. Bakı: Elm və təhsil, 2012.

[5]Qafarlı V. Məhsəti Gəncəvi obrazı Azərbaycan səhnəsində. "Kaspi" qəz., 2013, 24 avqust, № 152, s.11 .

[6]Həbibbəyli İ. Böyük ədəbiyyat nəhəngi. Bakı: Elm və təhsil, 2012.

[7]Kərimli T. Nizami və tarix. Bakı: Elm, 2002.

[8]Yusifli X. Nizami Gəncəvi: Sələflər və xələflər. Bakı: Adiloğlu, 2011.

[9]Cəfərov N Həqiqətin İsa Muğannası, yaxud İsa Muğannanın həqiqəti. "525-ci" qəz., 2014, 9 yanvar.

[10]Kamal R. İsa Muğanna: Ün və İşıq məqamı (İsa Muğanna qnostikasına giriş, "525-ci" qəz., 2013, 14 oktyabr.

[11]www.ədəbiyyatinstitutu.az (Məmməd T."Muğannanın Ün və Gürünü".

[12]Axundova Z.M. Tarixi pyeslərin Azərbaycan teatrında səhnə təcəssümü: Sənətşünaslıq. ü.f.d. dis. Bakı, 2005.

[13]Hüseynova Ş. M.S. Ordubadinin "Qılınc və Qələm" romanı: f.ü.f.d. dis. Bakı, 2007.

[14]Şükürov S. Nəriman Həsənzadənin yaradıcılıq yolu. Bakı: Ozan nəşriyyatı, 2004.

[15]Seyidov M. Əxi-qardaşlıq icması haqqında bəzi qeydlər,Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1967, № 1.

[16]Abbasov İ. Şairin arxivini vərəqlərkən. "Ədəbiyyat və incəsənət" qəz., 1975, 25 yanvar

monoqrafiya, istərsə də məqalə şəklində ədəbiyyatımızda N.Gəncəvi obrazının əksi olan əsərlərlə bağlı çox qiymətli fikirlər söyləmişlər.

Azərbaycan bədii ədəbiyyatında Nizami Gəncəvi obrazının ilk dəfə sistemli şəkildə öyrənilməsi Zeynalova Solmaz Cəfər qızına aiddir. S.Zeynalova 1982-ci ildə müdafiə etdiyi "Azərbaycan sovet ədəbiyyatında Nizami obrazı"[1] adlı namizədlik dissertasiyasında Nizami Gəncəvinin bədii obrazının milli nəsrdə və dramaturgiyada təsvirini təhlilə cəlb etmişdir. Tədqiqatçı iki yarımfəsildə M.S.Ordubadinin "Qılınc və qələm", A.N.Zöh-rabbəyovun "Odlu diyar" romanlarını, Ə.Məmmədxanlının "Afaq", C.Məmmədovun "Portret" hekayələrini, M.Hüseynin "Nizami" pyesini, A.Kəmalənin "Məhsəti" mənzum dramını, Z.Xəlilin "Gəncə qartalı" əsərini təhlilə cəlb etmişdir. Bu əsərlərin hər birində Nizami obrazı müxtəlif səviyyədə və istiqamətlərdə öz bədii əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının bədi inikasının öyrənilməsinin ədəbiyyatşünaslığımızın daim diqqətində olduğunu izlədik. Nizami Gəncəvi obrazını əks etdirən ayrı-ayrı bədii əsərlərə həsr olunmuş elmi monoqrafiyaların, müəyyən növ daxilində tarixi əsərlərin öyrənil-məsinə həsr edilmiş araşdırmaların və həmçinin Solmaz Zeynalovanın araşdırması olaraq Nizami Gəncəvi obrazının bədii əsərlərdə əksinə həsr edilmiş ilk və yeganə dissertasiyanın nəzərdən keçirməyimiz mövzunun nə qədər öyrənilməsinə aydınlıq gətirməyimizə imkan verdi. Bu istiqamətdə apardığımız geniş təhlillərin nəticəsi olaraq belə qənaətə gəlirik ki, tədqiqat mövzumuz Nizami Gəncəvi obrazının bütün ədəbi növlər çərçivəsində öyrənilməsinə həsr olunmuş ilk sistemli elmi tədqiqat işidir.

**Tədqiqatın obyekti və predmeti.** Əsrlərlə klassik ədəbiyyatımızı mövzu ilə təmin edən, ideyaları üzərində bu gün də bədii əsərlər yazılan Azərbaycanın dahi söz ustadı Nizami Gəncəvinin obrazını əks etdirən lirik, epik və dramatik növdə yazılan bədii ədəbiyyat nümunələri dissertasiyanın obyektini, dahi mütəfəkkirimizin surətinin hər üç ədəbi növdə yer aldığı bədii əsərlərin təhlilini özündə ehtiva (həm yazıldığı dövrdə,həm də sonrakı dövrlərdə) edən arxiv materialları, qəzet, jurnal və monoqrafiyalar isə dissertasiyanın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Məqsəd tədqiqat üçün aktual olan problemin obyektiv elmi-nəzəri və sosioloji təhlilini, analizini vermək, Nizami Gəncəvinin ədəbiyyat tariximizdəki yerinin, rolunun nədən ibarət olduğunu göstərmək və dahi şairin obrazının ictimai-mənəvi əhəmiyyəti

---

[1] ейналов С. Образ Низами в Азербайджанской советской литературы: Автореф. дис. … канд. фил.наук. Baku, 1982.

haqqında fikir formalaşdırmaqdır. Bunun üçün problem aşağıdakı istiqamətdə araşdırılmış və mühüm qənaətlər alınmışdır. Həmin vəzifələr aşağıdakılardır.

– Nizami Gəncəvi obrazını əks etdirən bədii əsərlərin məzmununun sistemli şəkildə nəzərdən keçirilərək tədqiqata cəlb etmək

Ədəbiyyatımızda Nizami Gəncəvi obrazı üçün xarakterik olan bədii meylləri aydınlaşdırmaq;

– Nizami obrazını ədəbiyyatda əks etdirməklə onun sənət meyarlarını, fərdi xüsusiyyət və keyfiyyətlərini önə çəkmək;

– Ədəbiyyatda təsvir edilən Nizami obrazını təhlil etmək, onun bədii psixologizm meyarlarını şərh etmək;

– Nizaminin tipik olan psixologiyasını sosioloji təhlil prosesində daha çox müəyyənləşdirmək;

– Nizami dühasının mahiyyəti olan millilik (həm də bəşərilik) və müasirlik məziyyətlərinin hüdudlarını göstərmək;

– Nizami obrazının poetikasınıədəbi tənqidin qənaətləri ilə müqayisəli müstəviyə çıxarmaq;

– Tədqiqata cəlb olunan əsərlərdə ədəbi obyektin bədii-elmi həllinə müəllifin necə nail olduğunu izah etmək;

– Nizami obrazının milli poeziya, nəsr və dramaturgiya tarixində yerini və rolunu dəyərləndirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya tarixi-müqayisəli metod əsasında işlənmişdir. Bu, ondan irəli gəlir ki, dissertasiyanın probleminin həlli ona, ilk növbədə, tarixi cəhətdən yanaşmağı tələb etmişdir. Dissertasiyada bədii əsərlərin ehtiva etdiyi bilgiləri elmi əsərlərin verdiyi məlumatlarla tutuşdurmuş, tarixi və bədii həqiqətlərin nə qədər qorunduğuna nəzər salmağa çalışmışıq. Nizami Gəncəvi obrazını əks etdirən bədii əsərlər tarixi xronologiya əsasında nəzərdən keçirilmişdir.

Tarixi yanaşma nizamişünaslığın müxtəlif mərhələlərinin biri-biri ilə müqayisəsinə əsaslanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının ilk dəfə sistemli şəkildə öyrənilməsi Solmaz Zeynalovanın adı ilə bağlıdırsa da, müəllifin tədqiqatında da mövzunun tam əhatə olunmadığını görürük. Məhz bunları nəzərə alaraq işin elmi yeniliklərini aşağıdakı kimi səciyyələndiririk:

– Solmaz Zeynalova, əsasən, hekayələr, romanlar və dramlar əsasında tədqiqat aparmışdır. Poeziyada Nizami Gəncəvi obrazı tədqiqatdan kənarda qalmışdır. Araşdırmamızın əsas yeniliklərindən biri ilk dəfə olaraq poeziya-

nın geniş şəkildə tədqiqata cəlb edilməsidir.

– İlk dəfə olaraq lirik-epik əsərlərdə Nizami obrazının öyrənilməsi, “Şairin kədəri” hekayəsinin üzə çıxarılaraq dəyərləndirilməsi də işin yeniliklərindəndir.

– Dissertasiyanın birinci fəsli də işin özünəməxsusluğunu və yeniliyini təşkil edir. İlk dəfə olaraq Nizami Gəncəvinin bədii obrazını formalaşdıran mənbələr tədqiqata cəlb edilmiş və həmçinin mövzunun öyrənilməsi dərəcəsinə nəzər salınmışdır.

– Müstəqillik dövrü nizamişünaslığında Nizami Gəncəvi obrazına milli aspektdən yanaşma da mövzunun elmi yeniliyini səciyyələndirir.

– Nizami Gəncəvi obrazını özündə ehtiva edən, lakin “Nizami Gəncəvi-870”[1] biblioqrafiyasının –Nizami Gəncəvi bədii ədəbiyyatda- fəslində öz əksini tapmayan bir çox bədii əsərlərin ilk dəfə sistemləşdirilməsi də dissertasiyanın elmi yeniliyi sırasındadır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya Azərbaycanın müstəqillik dövrünün humanitar elminin metodologiyası əsasında yazıldığından, burada əksini tapmış bir sıra müddəalar, bu sahədə bundan sonra aparılacaq araşdırmalar üçün nəzəri zəmin rolunu oynaya bilər. İşin praktik əhəmiyyəti iki yöndə nəzərdən keçirilə bilər:

a) Azərbaycan ədəbiyyatı tarixi üzrə aparılan xüsusi kurslarda dissertasiyadan əlavə vəsait kimi istifadə oluna bilər;

b) Tarixi şəxsiyyətlərin obrazının yaradılması və ictimai mühitin formalaşdırılması ədəbi prosesin hər zaman diqqət mərkəzində duran məsələlərdəndir. Buna görə də dissertasiyadan müasir ədəbiyyatda Nizami Gəncəvinin obrazının canlandırılması istiqamətində aparılacaq ədəbi fəaliyyətin stimullaşdırılmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin “Azərbaycan ədəbiyyatı şöbəsində” yerinə yetirilmişdir. Dissertasiyanın məğzini əhatə edən məqalə, konfrans materialı və tezislər Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi ölkə və xarici elmi jurnallardadərc olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

---

[1]N. Gəncəvi Biblioqrafiyası (Anadan olmasının 870 illiyinə həsr olunur).Bakı: 2012.

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**“Giriş”**də mövzunun aktuallığı, işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti, nəzəri-metodoloji əsasları, aprobasiyası və quruluşu haqqında danışılır.

Dissertasiyanın **“Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının öyrənilməsi tarixi”** adlı I fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə (**Nizami Gəncəvinin bədii obrazını formalaşdıran ilkin elmi-ədəbi qaynaqlar**) Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının formalaşmasında öz əsərlərinin rolu ilə yanaşı, ilkin ədəbi qaynaqların, ədəbi materialların bu sahədə mühüm əhəmiyyət kəsb etməsindən bəhs edilir.

Dünya mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan Nizami Gəncəvi yaradıcılığı Azərbaycan bədii-estetik fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir. Nizami Gəncəvi dühası əsrlərlə Azərbaycan şairlərinin yaradıcılıq yolunu işıqlandıraraq XIX əsrə qədər öz ədəbi məktəbinin qapısını açıq buraxmışdır. XX əsrdə isə şairin yaradıcılığının öyrənilməsinə marağın və ehtiyacın artması ilə yanaşı, şairin ədəbi şəxsiyyəti özü də ədəbiyyatın bədii obrazına çevrilmişdir. Bu ədəbi-bədii nümunələrdə yazarların təxəyyülünü qidalandıran mənbələrdən birincisi şairin öz poemaları olduğu kimi, ilkin ədəbi qaynaqlar da əhəmiyyətli rol oynayırdı.

Nizami Gəncəvinin bədii obrazı ilk dəfə şairin özü tərəfindən əsərlərində verilmişdir. Əsərləri Nizami haqqında məlumatlarla nə qədər zəngindirsə, ilkin ədəbi qaynaqların Nizami Gəncəvi haqqında verdiyi məlumatlar da bir o qədər zəngindir. Belə ki, Lütfəlibəy Azərin “Atəşkədə”, Məhəmməd Əli Tərbiyətin “Danışməndane Azərbaycan” təzkirələri, Abbasqulu ağa Bakıxanovun Gülüstani-İrəm”elmi əsəri, Mirzə Fətəli Axundovun“Kritka” məqaləsi, Mirzə Məhəmməd Axundovun“Şeyx Nizami” kitabı, Firudun bəy Köçərlinin“Azərbaycan ədəbiyyatı tarixi materialları” kitabı və Salman Mümtazın “Şeyx Nizami” məqaləsi Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazının formalaşdırılmasında

ilkin-ədəbi material rolunu oynamışdır.

XX əsrin birinci yarısına qədər ilkin ədəbi-tarixi qaynaqlarda Nizami Gəncəvi haqqında verilən məlumatlar qiymətli bir məxəz kimi qorunaraq yaddaşlardan yaddaşlara ötürülmüşdür. Şair haqqında yazan görkəmli yazıçı və şairlərimiz bu məxəzə sahib çıxaraq öz yaradıcılıqlarında məhz onların sayəsində dahi şairin ölməz bədii abidəsini ucaltmışdırlar.H.Araslının "Şairin həyatı"[1] elmi-publisistik əsəri, M.S.Ordubadinin "Qılınc və qələm",[2] A.Zöhrabbəyovun "Odlu diyar",[3] Oqtay Salamzadənin "Əsrlərin sirri",[4]İ.Hüseynovun (İsa Muğanna) "Gürün"[5]romanları, M.Hüseynin "Nizami",[6] N. Həsənzadənin "Atabəylər",[7] Z.Xəlilin "Gəncə qartalı"[8] və ya ikinci adı ilə "Şairin yuxusu", A.Kəmalənin "Məhsəti",[9] M.Dilbazinin "Məhsəti"[10] adlı dramları, Ə.Məmmədxanlının "Afaq",[11]M.Əlizadənin "Şairin kədəri",[12] C.Məmmədovun "Portret"[13]hekayələri, Balaş Azəroğlunun "Nizami",[14] M.Dilbazinin "Məhsəti"[15] poeması kimi əsərlərin hər birində Nizami obrazı ilə bağlı ilkin ədəbi-tarixi mənbələrin verdiyi məlumatların bədii inikasını müşahidə edirik.

I fəslin ikinci yarımfəslində (**Nizami Gəncəviyə həsr olunmuş bədii əsərlərin tədqiqi tarixi)** Nizami Gəncəviyə həsr olunan bədii əsərlərin tədqiqindən bəhs edən monoqrafiyalar, məqalələr sistemli şəkildə tədqiqata

---

[1]Araslı H. Şairin həyatı. Bakı, 1940.
[2]Ordubadi M.S."Qılınc və Qələm"(Mətn): 2 hissədə: Təkrar nəşr. Hissə I, Bakı: Şərq-Qərb, 2005.
[3]Zöhrabbəyov A. Odlu diyar (Tərcümə edən M.Quluzadə). Bakı: Yazıçı, 1978.
[4]Salamzadə O. Əsrlərin sirri. Bakı: Yazıçı, 1989.
[5]Muğanna İ. Gürün. Bakı: Hədəf nəşrləri, 2013.
[6]Hüseyn M. Seçilmiş əsərləri, 3 cilddə, III c., Bakı: Avrasiya-Press, 2005.
[7]Həsənzadə Nəriman. Seçilmiş əsərləri. 7 cilddə, III c., Bakı: Prometey nəşriyyatı 2011. (Ön söz İ. Həbibbəyli)
[8]Xəlil Z. Əsrim, taleyim mənim, "Şeirlər və poemalar", Bakı: Azərnəşr, 1978.
[9]Ağayeva K. "Məhsəti" pyesi, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
[10]Dilbazi M. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004.
[11]Məmmədxanlı Ə. Hekayələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956.
[12]Əlizadə M. Şairin kədəri. "Ədəbiyyat" qəz., 1941, 13 aprel
[13]Мамедов Д. Литературный Азербайджан. Баку, 1941, №1, 17-21 стр.
[14]Azəroğlu B . Seçilmiş əsərləri. Bakı: Öndər, 2004.
[15]Dilbazi M. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004.

cəlb edilmişdir.

Azərbaycan elmi tədqiqatında Nizami Gəncəvi haqqında tarixi faktların çətinliklə əldə olunması səbəbindən tədqiqatçılar şairin həyat yolunu öz əsərlərinə istinadən işıqlandırmağa çalışmışdırlar. Şairin poemaları onun həyatı haqqında verdiyi məlumatlarla nə qədər zəngindirsə, psixoloji portretinin yaradılması istiqamətində də çox material verir. Azərbaycan alimləri dahi sənət ustadının poemalarının bu məziyyətindən müvəffəqiyyətlə istifadə edərək Nizami Gəncəvi haqqında tarixi-bədii əsərlərin yaradıcılarına aydın istiqamətlər vermişdirlər.

Salman Mümtazın adı bədii ədəbiyyatda Nizami obrazının öyrənilməsi tarixinin ilk səhifələrinə düşür. Alim "Şeyx Nizami"[1] məqaləsində türk ədəbiyyatında şairin xatirəsinə həsr olunmuş şeir haqqında bəhs edərək yazırdı: "Nizamini hər bir əsrin pişvaları pişvaədd edərək təqdir etmişlər və bu günə kimi kimsə onun "Xəmsə"sinə cavab söyləməmişdir.

Azərbaycan ədəbiyyatında Nizami Gəncəviyə həsr olunan bədii əsərlərin tədqiqi tarixindən bəhs edən yarımfəsildə əldə edilən mühüm elmi nailiyyət bundan ibarətdir ki, Nizami Gəncəvi haqqında yazılan hər bir bədii əsər onun tədqiqindən, təhlilindən bəhs edən monoqrafiya və məqalələrlə birlikdə tədqiqata cəlb edilmişdir. N.Gəncəviyə həsr olunan bədii əsərlər, əsasən, H.Araslı,[2] N.Araslı[3], İ.Abbasov[4], "Azərbaycan ədəbiyyatı tarixi"[5]II c, Z.Bünyadov və Ə.Rəhimov[6], C.Cahanbaxş[7] N.Cəfərov,[8] M.A.Dadaşzadə, [9]R.Əfqanlı,[10] Ə.Əhmədova,[11]R.Əliyev,[1]T.Əyyubov,[2]

---

[1]Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986.
[2]Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: Gənclik, 1998.
[3]Araslı Nüşabə. Nizaminin poetikası. Bakı: Elm, 2004.
[4]Abbasov İ. Zamanla birlikdə, "Ədəbiyyat və incəsənət" qəz., 1975, 25 yanvar
[5]Azərbaycan ədəbiyyatı tarixi, II cild. Bakı: Elm, 2007.
[6]BünyadovZ, Rəhimov Ə. Tarixi həqiqətlər...Yoxsa təhriflər? Azərbaycan jurnalı, Bakı, 1989, №4, s. 164-181.
[7]Cahanbaxş C. Nizamiyə dair iki hekayə. "Ədəbiyyat" qəz., 1941, 18 may.
[8]Cəfərov N Həqiqətin İsa Muğannası, yaxud İsa Muğannanın həqiqəti. "525-ci" qəz., 2014, 9 yanvar.
[9]Dadaşzadə M.A. Nizami dramı haqqında, "Kommunist" qəz., 1942, 19 avqust.
[10]Əfqanlı R. Nizami obrazı, "Ədəbiyyat" qəz., 1942, 5 avqust, № 23.
[11]Əhmədova Ə. Bu ellərə vurulmuşam. Bakı: Yazıçı, 1978.

bov,[2] V.Qafarlı,[3] S.Hacıyeva,[4] İ.Həbibbəyli,[5] N.Həsənzadə,[6] "M.Hüseyn Gündəliyi"[7] (özünün "Nizami" əsəri haqqında) M.İbrahimov,[8] R.Kamal,[9] B.Məmmədova,[10] E.Mustafayev,[11] Ş.Hüseynova,[12] B.Əhmədov,[13] A.Bayramoğlu[14] və başqa alimlərin tədqiqatında öz əksini tapmışdır.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan poeziyasında Nizami Gəncəvi şəxsiyyətinin bədii tərənnümü"** adlanır.Həmin fəsil iki yarımfəsildən ibarətdir. **(Poeziyada Nizami Gəncəvinin bədii obrazı)** adlı birinci yarımfəsildə dahi şairimizə yazılı ədəbiyyatımızda həsr olunan lirik əsərlər tədqiqata cəlb edilmişdir.

Poeziyada Nizami Gəncəvinin bədii obrazı ilk dəfə şairin öz əsərlərində yaradılmışdır. Nizaminin əsərlərindəki müəllif obrazı Azərbaycan ədəbiyyatında şairin həyatı haqqında yazılan bədii əsərlərin ilkin istinad mənbəyi, dahi ustadın bədii portretinin yaradılmasında yazarların təxəyyülünün faydalandığı ən əsas qaynaqlardandır. Nizaminin ilk bədii portretinin müəllifi məhz şairin özüdür. Məhəmməd Əmin Rəsulzadə ölməz elmi əsəri "Azərbaycan şairi Nizami"[15] də bu fikri şairin öz qəsidəsi ilə təkrarolun-

---

[1]Əliyev R. Böyük roman, dar koma. "Ədəbiyyat və incəsənət" qəz., 1989, 15 dekabr, № 50.

[2]Əyyubov T. Məhsəti. "Bakı"qəz., 1965, 18 iyun.

[3]Qafarlı V. Məhsəti Gəncəvi obrazı Azərbaycan səhnəsində. "Kaspi" qəz., 2013, 24 avqust, № 152.

[4]Hacıyeva S. Afaq. "Ədədbiyyat" qəz., 1942, 5 avqust, №23.

[5]Həbibbəyli İ. (Ön söz ). Həsənzadə Nəriman. Seçilmiş əsərləri, 7 cilddə, III c., Bakı: Prometey nəşriyyatı 2011.

[6]Həsənzadə N. Ədəbi həqiqətlər tarixi həqiqətləri təhrif etmir, Azərbaycan jurnalı, 1989, № 10.

[7]Hüseyn M.Gündəliyindən, Azərbaycan jurnalı, 1979, №6.

[8]İbrahimov M. Nizami draması və tarixi dram məsələsi haqqında. "Ədəbiyyat" qəz. 1942, 15 dekabr, №33.

[9]Kamal R. İsa Muğanna: Ün və İşıq məqamı (İsa Muğanna qnostikasına giriş, "525-ci" qəz. 2013, 14 oktyabr.

[10]Məmmədova B. Balaş Azəroğlunun yaradıcılıq yolu. Bakı, 2009.

[11]Mustafayeva E. Nəriman Həsənzadənin yaradıcılığında tarixilik və müasirlik. Bakı, 2010.

[12]Hüseynova Ş. M.S. Ordubadinin "Qılınc və Qələm" romanı: f.ü.f.d. dis. ,Bakı, 2007.

[13]Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, II cild, Bakı, 2010.

[14]Bayramoğlu. A Nizami Gəncəvi irsinə məhəbbətlə.Nizamişünaslıq N-1, Bakı: Elm və təhsil, 2011.

[15]Mehmet Emin Resulzade Azerbaycan şairi Nizami Ankara,Milli Egitim Basımevi, 1951.s.75.

mayacaq tərzdə ifadə etmişdir.

“Hər kəs için birər inci işlədim,
Kəndimə də bir qəsidə söylədim”.[1]

Azərbaycan ədəbiyyatının bütün dövrlərinə nəzər salsaq görərik ki, bütün mərhələlərdə Nizami Gəncəvinin bədii obrazını tərənnüm edən çoxlu sayda və müxtəlif mövzularda şeir nümunələri vardır. Məhz həmin dövrləri və mövzuları nəzərə alaraq poeziyada Nizami Gəncəvi obrazı ilk dəfə sistemli şəkildə bu fəsildəişıqlandırılır.

Əgər orta əsrlər poeziyasında (Ə.Təbrizi, M.Füzuli) Nizami Gəncəvinin mənən yaşadığı, hər zaman şairlərin qəlbində bir ustad kimi diri olduğu vurğulanırdısa, XIX əsrdən başlayaraq Nizami Gəncəvi xatirəsinə laqeydlik təəssüflə qeyd olunurdu ki, bu da Seyid Əzim Şirvaninin,M.M.Axundovun,Ə.Müznibin,Ə.Nəzminin yaradıcılığında geniş məzmunda nəzərə çatdırılmışdır.

Nizami Gəncəviyə həsr olunan bədii əsərlərin və elmi, publisistik məqalələrin davamlı dərc olunması 1939-cu ildən başlayır. Dahi şairə göstərilən bu münasibətin isə səbələrini Z.Allahverdiyeva izah edərək yazır: “1939-cu ildə Stalinin imperiya əsarəti altında olan millətlərin gözündən pərdə asmaq naminə etdiyi “Milli ədəbiyyatların inkişafı haqqında” məruzəsi və 3 aprel “Pravda” qəzetində Nizami Gəncəvi irsinin təbliğ və tədqiqinin vacibliyi haqqında qərarı Azərbaycan alimlərinin illərdən bəri çarpışdığı məqsədə çatmağa imkanlar açdı”[2] Nizami irsinə dövlət tərəfindən qayğı göstərilməsi, tədqiqatçının qeyd etdiyi kimi, yalnız gözdən pərdə asmaq deyil, həm də milli ədəbiyyatı ideoloji rejimin nəzarəti altına almaq, idelogiyanın silahına çevirmək idi ki, mövcud siyasi rejim qarşısına qoyduğu məqsədə müvəvffəqiyyətlə çatmağın yollarını da yaxşı bilirdi. Aparılan siyasət sayəsində dahi Nizami sadəcə sovet ideologiyasının tribununa çevrilirdi. Nizami haqqında orta əsrlər mənbələrinin verdiyi məlumatların hər cəhdlə şübhə altına alınması yolu ilə təqdim olunması şairin yüksəık ruhani-mənəvi dünyasından ayrılaraq, yalnız maddi, sosial münasibətlər səviyyəsinə endirilməsinə xidmət edirdi.

Əlbəttə bütün bunlarla yanaşı, dahi şairimizi hər hansı ideologiyanın silahından aslı olmayaraq, mənsub olduğu məziyyətləri ilə tərənnüm edən

[1]Mehmet Emin Resulzade Azerbaycan şairi Nizami Ankara,Milli Egitim Basımevi, 1951.s.75.
[2]Allahverdiyeva Z. Azərbaycanda Nizamişünaslığın təşəkkülü və inkişafı (XX əsrin 40-cı illəri). Bakı, 2007, s.15.

şairlərimiz də yox deyildi. S.Vurğunun,[1]Ə.Kürçaylının,[2] T.Bayramın[3] N.Rəfibəylinin,[4] H.Arifin,[5] R.Z.Xəndanın,[6] Hidayətin,[7] N.Xəzrinin,[8] Qabilin,[9] M.Alimin,[10]Z.Yaqubun,[11]N.Həsənzadənin[12] yaradıcılğında Nizami Gəncəvinin ədəbi siması parlaq boyalarla canlandırılır, şairin söz dünyasının əbədiyyətindən dönə-dönə söhbət açılır və milli təfəkkürə xidməti sadalanırdı.

**"Lirik-epik əsərlərdə Nizami Gəncəvi idealı"** adlanan ikinci yarımfəsildə Azərbaycan ədəbiyyatında Nizami Gəncəviyə həsr olunan poemaları ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən təhlil və tədqiqata cəlb edilmişdir.

Azərbaycan yazarlarınınbədii əsərlərində,xüsusən poemalarında Nizami Gəncəvi ilk növbədə azad şəxsiyyəti ilə yaddaqalan bir obrazdır ki, elmi tədqiqatlarda da ilk növbədə tarixən məhz bu məsələyə münasibət göstərilmişdir. Lütfəli bəy Azər Bəydilinin,[13] Mirzə Məhəmməd Axundovun,[14] Firidun bəy Köçərlinin,[15] Salman Mümtazın,[16]Məhəmməd Əmin Rəsulzadənin[17] tədqiqatlarında Nizami Gəncəvinin dünya buxovlarından azad ruhunun tərənnümü qırmızı xətlə keçirdi.

Nizami Gəncəvi haqqında tarixən yazılıb günümüzə çatanbədii əsərlərdəki azad şəxsiyyət obrazı XX əsrin ikinci yarısında lirik-epik əsərlərin də mövzusuna çevrilmişdir. Bu baxımdan Mirvarid Dilbazinin

---

[1]Vurğun S. Nizami, "Ədəbiyyat" qəz., 1939, 12 oktyabr.
[2] Kürçaylı Ə. Nizami, Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2004.
[3]Bayram T. Nizami Çələngi, "Kommunist" qəz., 1981, 27 sentyabr.
[4]Rəfibəyli N. Nizamiyə. "Seçilmiş əsərləri". Bakı: Şərq-Qərb, 2004.
[5]Arif H. Nizamiyə. "Kommunist" qəz., 1984, 04 oktyabr.
[6]Xəndan R.Z. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
[7]Hidayət. Nizami məqbərəsi önündə, "Seçilmiş əsərləri". Bakı: Şərq-Qərb, 2007.
[8]Xəzri N. Siz ey Nizamiyə əl qaldıranlar, "Seçilmiş əsərləri". Bakı: Lider nəşriyyatı, 2004.
[9]Qabil. Nizami. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
[10]Alim M. Sən əvvəl mənimsən, "Ədəbiyyat qəzeti", 2011, 07 oktyabr.
[11]Yaqub Z. Nizami dünyası, "Seçilmiş əsərləri", II cild, Bakı: Şərq-Qərb, 2006.
[12]Həsənzadə N. "Şeyxim" seçilmiş əsərləri-I cild, Bakı: Şərq-Qərb, 2004.
[13]Məmmədova M. Lütfəli bəy Azər və Azərbaycan ədəbiyyatı. Bakı: Örnək nəşriyyatı, 2001.
[14]Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları, I cild, Bakı, 1978.
[15]Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları, I cild, Bakı, 1978.
[16]Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986.
[17]Mehmet Emin Resulzade Azerbaycan şairi Nizami Ankara,Milli Egitim Basımevi, 1951.

“Məhsəti” Balaş Azəroğlunun “Nizami” poemaları səciyyəvidir.

İstər Mirvarid Dilbazinin “Məhsəti”, istərsə də Balaş Azəroğlunun “Nizami” poemalarında XII əsr Azərbaycanında dövrü təfəkkürü ilə qabaqlamış mütəfəkkir şairlərin çəkdikləri iztirablar yüksək sənətkarlıqla öz bədii əksini tapmışdır. Tarixi faktlarla isbatı mümkün olmasa da, şairlərin süjetdə təsvirini tapmış ruhi yaşantılarını təkzib etmək olmaz. Dövrünün yeganəsi olan bu seçilmiş insanlar öz arzuları, əməlləri, düşüncələri ilə cəmiyyət tərəfindən, təbii ki, dərk oluna bilməzdilər. Bu həqiqəti şairlər dönə-dönə etiraf etmiş, göz yaşlarını əllərinin altındakı qiymətli əlyazmalarına, mürəkkəblərinə qarışdıraraq axıtmışdırlar.

Dissertasiyada Nizami Gəncəviyə həsr olunan poemalar tədqiq edilərkən irəli sürülən mülahizələr həmin əsərlər haqqında elmi fikir söyləyən alimlərin – M.S.Ordubadinin, Ə.Əhmədovanın, B.Hüseynəli qızının poemalar haqqında gəldiyi qənaətlərlə müqayisəli şəkildə təqdim olunur.

XX əsr Azərbaycan ədəbiyyatında lirik-epik əsərlərdə Nizami Gəncəvi obrazı vənətpərvərlik, insanpərvərlik təcəssümü, sufiyanə baxışları ilə, müdrikliyi, azad iradəsi ilə əsrlərin ən qüdrətli şairi kimi öz tərənnümünü tapmışdır.

Üçüncü fəsil **“Nizami Gəncəvi obrazı bədii nəsr nümunələrinin məzmunu kontekstində”** adlanır. Dissertasiyanın III fəsli də öz növbəsində iki yarımfəsildən ibarətdir. **“Tarixi roman janrı və Nizami Gəncəvi obrazı”** adlandırılan birinci yarımfəsildə deyilir: Məlum olduğu kimi Nizami Gəncəvi haqqında ilk nəsr əsəri şairin 800 illik yubileyinə hazırlıq mərhələsində yazılmağa başlamışdır. Nizami dühasının Azərbaycan və dünya ədəbiyyatşünaslığında müxtəlif istiqamətlərdə tədqiqata cəlb edilərək işıqlandırılması onun ədəbi-bədii simasını da xəyallarda formalaşdırıdı. Buna görə də təsadüfi deyil ki, şairin həyatına həsr olunmuş ilk irihəcmli epik əsərlər öz tədqiqatçıları olan H. Araslı və M. S. Ordubadi tərəfindən yazılmışdır.

Həmid Araslının Nizami Gəncəviyə həsr olunmuş “Şairin həyatı” əsərini sənədli povest də adlandıra bilərik. Əsər alim-yazıçının bədii təxəyyülü ilə yanaşı, Nizami Gəncəvinin əsərlərindən əldə olunan tarixi faktlar və bədii əsərlərinin məzmunu əsasında yazılmışdır.

“Şairin həyatı” povestində əxilik haqqında rəğbətlə danışılsa da, bu

təşkilatın fəaliyyəti ictimai-siyasi proseslərlə bağlı təqdim olunurdu.[1]

Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi obrazını dövrünün tarixi hadisələri kontekstində ən mükəmməl şəkildə ilk dəfə işıqlandıran bədii əsər M.S.Ordubadinin "Qılınc və qələm" əsəridir. "Qılınc və qələm", sözün yüksək mənasında, obrazlı təfəkkürün gözəl nümunəsidir. Bu əsərdəki təsvirlər yüzillik bir tarixin canlı təsviridir.

M.S.Ordubadi "Qılınc və qələm" tarixi romanında qılıncın məsuliyyətini və şərəfini qələmin qüdrəti ilə təsbit etmişdir. Eyni zamanda, qələmin də qüdrət və məsuliyyəti böyük sənətkarlıqla mənalandırılmışdır. Romanda Nizami Gəncəvinin sərkərdə Fəxrəddinə dediyi aşağıdakı sözlər ölkənin taleyində qılıncın və qələmin vəhdətinin diqqət mərkəzinə çəkilməsinin zəruriliyi barədə yazıçının görüşlərini daha aydın şəkildə başa düşməyə şərait yaradır: "Sənə bir məsləhət verəcəyəm. İndi ki qılınc və mizraq işlətməyə, ox və kaman işləri ilə məşğul olmağa həvəsin vardır, onları yaxşı öyrən. Mən də qələm işlərində yüksək mərtəbə əldə etməyə çalışacağam. Bunların ikisi də bizə lazımdır".[2]

Yazıçı "Qılınc və qələm" romanında Nizaminin şəxsi həyatını, məhəbbətini, ailə mühitini, onun siyasi, ictimai, fəlsəfi və ədəbi görüşlərini kolliziyalarla sıx əlaqədə açıb göstərir.

M.S.Ordubadinin "Qılınc və qələm" tarixi romanı əsasında rejissor T.Kazımov tərəfindən pyes yazılaraq 1976-cı ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında səhnəyə qoyulmuşdur. Pyes mətbuatda böyük əks-səda doğuraraq müəyyən resenziyaların yazılmasına səbəb olmuşdur. İsa Həbibbəylinin,[3]Ziya Bünyadovun[4] və Camal Yusifzadənin[5] bu mövzudakı məqalələri əsərin səhnə təcəssümünü əks etdirməklə yanaşı, "Qılınc və qələm" romanının süjetinin təhlilinə də yönəldilmişdir.

Nizami obrazının yer aldığı ilk tarixi romanlardan biri də Anatoli Zöhrabbəyovun (1909-1946) rus dilində yazdığı "Odlu diyar" (1941-1942) əsəridir. "A.Zöhrabbəyov 1941-42-ci illərdə Azərbaycan tarixini dərin

---

[1]Seyidov M. Əxi-qardaşlıq icması haqqında bəzi qeydlər // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1967, №1.

[2]Axundlu Y. Məmməd Səid Ordubadi. Bakı: Elm və təhsil, 2012, s.384.

[3]Həbibbəyli İ. Böyük ədəbiyyat nəhəngi. Bakı: Elm və təhsil, 2012.

[4]Bünyadov Z. Tarixi dəqiqlik mühüm şərtdir. "Ədəbiyyat və incəsənət" qəz., 1976, 10 iyul, №28.

[5]Yusifzadə C. Qılıncla Qələmin ittifaqı. "Ədəbiyyat və incəsənət" qəz., 1976, 10 iyul, №28.

tədqiqlə məşğul olur və bu zaman “Odlu diyar” romanını yazmağa başlayır. Hərtərəfli bilik sahibi olan Zöhrabbəyov orta əsr Azərbaycan həyat və məişətini, mədəni və ictimai-iqtisadi həyatını adət və ənənələrini dərindən öyrənir, tədqiq etdiyi materiallar əsasında Nizami dövrünü əks etdirən bədii əsər yazmağa müvəffəq olur.[1]

A.Zöhrabbəyovun “Odlu diyar” romanında Nizami obrazı xüsusi canlandırılmamışdır. Əsərin sonuncu “Elçi” fəslində şairin sənətkarlıq məziyyətrləri, ədəbi şəxsiyyəti haqqında Axsitanın dilindən məlumatlar verilir.

Azərbaycan bədii nəsrində Nizami Gəncəvi obrazının yaradılması yazıçıdan ilk növbədə şairin əsərlərinin dərindən mənimsənilməsini, yaşadığı dövrün tarixini, ictimai-siyasi mühiti, məişəti, milli adət-ənənələri, ədəbi mühiti hərtərəfli öyrənməyi tələb etdiyi üçün bu istiqamətdə yazılmış irihəcmli əsərlər azdır. Şairin həyatına həsr olunmuş M.S.Ordubadinin “Qılınc və qələm” romanından sonra ikinci əsər Oqtay Salamzadənin “Əsrlərin sirri” (1989) romanıdır. Romanın yazılması əvvəlki əsərlərdən fərqli olaraq, sovet ideologiyasının yumşalması dövrünə təsadüf etdiyindən daha artıq obyektiv münasibət sərgiləyir.

“Əsrlərin Sirri”[2] romanı Nizami Gəncəvinin sələflərindən, özünün keşməkeşli həyatından və “Xəmsə”nin müqəddəs milli irsimizin ən dəyərli abidəsi kimi qorunub hifz edilməsindən bəhs edən üç hissədən ibarətdir. “Gəncə qapısı”, “Peyğəmbərin adaşı”, “Qızıl şir dəfinəsi” adlanan bu hissələrdə Nizami Gəncəvi ilə yanaşı fəaliyyət göstərən bir sıra dünya şöhrətlidövlət və mədəniyyət xadimlərinin, xalq qəhrəmanlarının sənədli-bədii obrazları yaradılmış, ümumxalq hərəkatlarının möhtəşəm lövhələri sənətkarlıqla təsvir edilmişdir.

Romanın təhlili ilə bağlı R.Əliyev yazır: “Əsərdə yüzlərlə obraz var. Bunların hamısı bilavasitə Nizami ilə bağlıdır. Bu boyda sanballı əsərdə Nizamiyə dəxli olmayan nə obraz var, nə hadisə, nə də söz. Elə sətir, elə cümlə, elə abzas yoxdur ki, hərflərə Nizami ətri çökməsin”.[3]

Oqtay Salamzadə Nizami Gəncəvinin ədəbi şəxsiyyətinin bədii inikasını yaradarkən Rüstəm Əliyevin tədqiqatlarından bəhrələnməklə şairin ictimai-dini baxışlarının əsaslarını doğru işıqlandırmağa nail olmuşdur.

Nizami Gəncəviyə həsr olunmuş ən son nəsr əsəri İsa Hüseynovun –

---

[1]Zöhrabbəyov A. Odlu diyar (Tərcümə edən M.Quluzadə). Bakı: Yazıçı, 1978.

[2]Salamzadə O. Əsrlərin sirri. Bakı: Yazıçı, 1989.

[3]Əliyev R. Böyük roman, dar koma. “Ədəbiyyat və incəsənət” qəz., 1989,15 dekabr, № 50.

bugünkü adıyla İsa Muğannanın **"**GurÜn"[1] romanıdır. "GurÜn" əsərlər içərisində həm də özünəməxsusluğu ilə seçilir. Romanın mütaliəsi çox ağırdır və çətin dərk olunandır. Bu əsəri dərk edərək təhlil edə bilmək üçün İsa Hüseynovdan İsa Muğannaya yol alan yaradıcılıq prosesini ciddi şəkildə öyrənmək lazımdır. Müəllif əsərinin bu cəhətini epiqraf olaraq ilk səhifəyə çıxarmışdır: "Yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə mən ƏsƏrlərin hamısını yenidən işlədim. Oxucu altılığa daxil edilmiş bu ƏsƏrləri yalnız göstərdiyim ardıcıllıqla oxumalıdır ki, fayda versin: "İdeal", "Məşhər" (Ənşər – mənşər), "Qəbiristan", "GurÜn", "İsahəq, Musahəq", "Cəhənnəm".[2]

Əsərdə Nizami Gəncəvi, Cahan Pəhləvan, Qızıl Arslan əxi təşkilatının nümayəndələri kimi təqdim olunurlar.

Müasir ədəbiyyatşünaslığımız İsa Muğanna fenomeninə laqeyd qalmır. Yazıçının bu yöndəki estetik görüşləri Nizami Cəfərovun,[3] Tahirə Məmmədin,[4] Rüstəm Kamalın[5] məqalələrində ətraflı şəkildə işıqlandırılmışdır.

Azərbaycan bədii nəsrində Nizami Gəncəvinin ölməz abidəsi azad insan şəxsiyyəti, cahanşümul şair siqləti, həyat və zəhmət aşiqi, böyük fəlsəfi dühası ilə yadda qalır. Bu abidənin yaradılmasında H.Araslının, M.S.Ordubadinin, A.Zöhrabbəyovun, O.Salamzadənin" və İsa Hüseynovun romanları böyük əhəmiyyət daşıyır.

Üçüncü fəslin ikinci yarımfəsli **"Azərbaycanın böyük ədəbi simasının bədii inikası və epik növün kiçik janrı"** adlanır.

Nizami Gəncəvinin yubileyi ərəfəsində irihəcmli əsərlərdə şairin obrazının yaradılması ilə yanaşı, kiçik həcmli nəsr əsərlərində də şairin şəxsiyyətini işıqlandıran nümunələrə təsadüf edirik. Bu əsərlər Ə.Məmmədxanlının "Afaq",[6]M.Əlizadənin "Şairin kədəri"[7] və C.Məmmədovun "Portret"[8] hekayələrindən ibarətdir.

---

[1]Muğanna İ. Gürün. Bakı: Hədəf nəşrləri, 2013.

[2]Muğanna İ. Gürün. Bakı: Hədəf nəşrləri, 2013, s.3.

[3]Cəfərov N Həqiqətin İsa Muğannası, yaxud İsa Muğannanın həqiqəti. "525-ci" qəz., 2014, 9 yanvar.

[4]www.nizami adına ədəbiyyat institutu.az (Məmməd T."Muğannanın Ün və Gürünü").

[5]Kamal R. İsa Muğanna: Ün və İşıq məqamı (İsa Muğanna qnostikasına giriş, "525-ci" qəz., 2013, 14 oktyabr.

[6]Məmmədxanlı Ə. Afaq. " Revolyusiya və kultura" qəz., 1941, №1.

[7]Əlizadə M. Şairin kədəri. "Ədəbiyyat" qəz., 1941, 13 aprel.

[86]Мамедов Д. Литературный Азербайджан. Баку, 1941, №1, s.17-21.

Ənvər Məmmədxanlı hekayəni yazdığı 1940-cı ildə ədəbiyyat tarixinə Nizami haqqında məlum olan faktları toplayaraq yüksək poetik dillə bədii sənət nümunəsinə çevirmişdir. "Afaq" hekayəsinin günümüz üçün əhəmiyyətini itirməməsinin əsas səbəbi də məhz tarixə sadiq qalmasındadır ki, hətta şairin hiss və həyəcanlarının tərənnümündə də bu prinsipdən bir addım kənara qoyulmamışdır.

M.Əlizadə də öz hekayəsində Ə.Məmmədxanlı kimi, Nizamini bir təbib kimi təsvir edirdi..

"Ədəbiyyat" qəzetinin 18 May 1941-ci il tarixli nömrəsində C.Cahanbaxşın "Nizamiyə dair iki hekayə"[1] adlı ədəbi-tənqidi məqaləsi Ə.Məmmədxanlı və M.Əlizadənin hekayələrinə həsr olunuşdur. Müəllif tarixi mövzuda bədii əsərlərin yazılmasını Azərbaycan ədəbiyyatı üçün xarakterik hadisə hesab edirdi. Tənqidçi belə əsərlərin qarşısına qoyulan ədəbi-estetik tələbləri müəyyənləşdirməyə çalışırdı: "Əlbəttə, tarixçi ilə yazıçının vəzifəsi eyni deyildir. Bu hamının bildiyi məlum həıqiqətdir. Hələ çox qədimlərdə Aristotel öyrətmişdir ki, tarixçi olan şeyləri, yazıçı isə ola biləcək şeyləri yazır. Lakin yazıçının işi tarixçidən daha çətindirsə də, hadisələrin düzgün təsvirini verməli olan tarixçiyə nisbətən onun imkanları da çoxdur. Yazıçı tarixdən quru və çılpaq faktları almır. O, bu faktlara ziynət verir, xəyal və fantaziya ilə onları zənginləşdirir".[2]

C.Cahanbaxş bütün tənqidlərinə rəğmən, "Afaq" hekayəsini müvəffəqiyyətsiz hesab etmirdi və son söz olaraq yazırdı: "Ənvərin "Afaq"ı böyük şairin eskizini, Afaqın kədərli siluetini vermişdir. Bu hekayə bu yolda ilk və ciddi təcrübə hesab edilsə də, Nizamidən danışan yaxşı hekayə adlandırıla bilməz."[3] "Şairin kədəri" hekayəsi isə tənqidçi tərəfindən bədii əsər kimi tamamilə inkar olunurdu: "İstər təmtərağa dərin bir həvəslə qapılması, istərsə də tarixi konkret situasiyanı düzgün əks etməməsi səbəbinə "Şairin kədəri" hekayə deyil, heç bir cəhətdən düşünülməyən, Nizami və ya Afaq obrazını verməkdən çox uzaq olan bir qaralamadır".[4]

Nizami Gəncəvinin böyük dühasına həsr olunmuş kiçik hekayələr bütün əskik yönlərinə baxmayaraq tarixi əsərlərin yazılmasında ilk təcrübə kimi bu gün də öz bədii-estetik dəyərini itirməmişdir.

Dissertasiyanın dördüncüfəsli **"Azərbaycan dramaturgiyasında Nizami Gəncəvi obrazı"** adlanır.Digər fəsillərdə olduğu kimi sonuncu fəsildə də

---

[1]Cahanbaxş C. Nizamiyə dair iki hekayə. "Ədəbiyyat" qəz., 1941, 18 may.,s.6.
[2]Yenə orada.
[3]Yenə orada.
[4]Yenə orada.

əldə edilən elmi fikirlər iki yarımfəsildə şaxələnmişdir. Birinci yarımfəsil **"Mehdi Hüseynin dramaturgiya yaradıcılığında Nizami Gəncəvi obrazı"** adlanır.

XX əsrin qırxıncı illərində Nizami Gəncəvinin yubileyinə hazırlıq ərəfəsində Azərbaycan bədii nəsrində, poeziyasında şairin ədəbi portretinin yaradılması aktual olduğu kimi, Nizami obrazının səhnəyə gətirilməsi də söz yaradıcılığının cari məsələsinə çevrilmişdir. Nizami Gəncəvinin yaradıcılığı ədəbiyyatımızın ən parlaq səhifələrini təşkil etdiyi kimi, şairin yaşayıb-yaratdığı XII əsr də tariximizin "qızıl dövrü" adlandırılmağa layiq səhifələrindəndir. XII əsrin ictimai-siyasi prosesləri kontekstində Nizami Gəncəvinin həyatının öyrənilməsi və bədii təsviri sənətkarlardan xüsusi hazırlıq və səriştə tələb edirdi. Buna görə də dramaturgiyada Nizami irsinin təbliği istiqamətində bədii yaradıcılıqla yanaşı, nizamişünaslıqla da məşğul olan görkəmli ediblərimizin fəaliyyətini izləyirik. S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami", A.Şaiqin "Nüşabə" əsərləri ədəbiyyatşünaslıq fəaliyyətinin nəticəsində yaranıb.

Mehdi Hüseyn "Nizami" dramında şairin həyat və fəaliyyətini əsas götürərək bu fonda dövrün ictimai-siyasi məslələrini, xalq məişətini səhnədə canlandırmağa çalışmışdır. Əsərin diqqət çəkən xüsusiyyətlərindən birincisi Nizaminin şəxsiyyətinin onun fəaliyyət göstərdiyi ədəbi mühit kontekstində işıqlandırılmasıdır.

"Nizami" dramı yazıldığı dövrdən etibarən elmi təhlillərə cəlb edilmiş və bir sıra ciddi qüsurlarına görə ədəbi tənqidin haqlı iradlarına məruz qalmışdır. Əsər geniş ədəbi dairədə müzakirə olunmuşdur ki, burada Mirzə İbrahimovun məruzəsi xüsusi əhəmiyyət daşıyır. M.İbrahim əsərin süjet xəttinin inkişafı ilə bağlı olaraq söyləyirdi: "Nizami" draması iki ruhi vəziyyətin, iki motivin, iki xəttin inkişafından doğmuşdur. Bu motivlər vətənpərvərlik və sevgi motivləridir".[1]

Tənqidçi görkəmli ədibin "Nizami" dramının ciddi qüsurlarından biri kimi şairin dolğun obrazını yarada bilməməsini görürdü. "Deyə bilərik ki, Mehdi yoldaş Nizami xarakterinin ancaq bir cəhətini, onun ən lirik cəhətini götürmüşdür. Bu, doğrudan da, belədir. Nizami ruhi şadlığın yüksək zirvəsini yaşadığı zaman belə ney kimi nalə edir. Hərgah müəllif Nizami obrazını yaratmağı öz qarşısına məqsəd qoymamışsa, onda nahaq yerə onu bütün intriqaların, bütün hadisələrin göbəyinə, yəni dramatik konfliktin mərkəzinə çəkməyə cəhd edir. Madam ki, Nizami bu planda verilir, onda obrazda

---

[1]İbrahimov M. Nizami draması və tarixi dram məsələsi haqqında. "Ədəbiyyat" qəz. 1942, 15 dekabr, №33, s.3.

onun müəyyən dərəcədə əsl poetik dühasının qüdrətini görmək istəyirik." Həqiqətən də, dramda Nizami Gəncəvinin şəxsiyyətinə aid tarixi,siyasi və dini dünyagörüşə malik mütəfəkkirlik xüsusiyyətini görə bilmirik".[1]

Göründüyü kimi haqqında danışdlğımız yarımfısildə M.Hüseynin "Nizami" dramına subyektiv münasibət bildirməklə yanaşı, pyesin elmi tənqidinə, tədqiqinə həsr olunmuş bir çox məqalə və monoqrafiyaları da müqayisəli şəkildə tədqiqata cəlb edilmişdir. Bu baxımdan, Y.Seyidovun,[2] Ə.İsgəndərovun,[3] Z.Axundovanın,[4] Ə.T.Xələfovun[5] tədqiqatları səciyyəvidir.

Mehdi Hüseynin "Nizami" dramı müasir bədii-estetik dəyərlərin tələblərinə cavab verməsə də, ədəbiyyat tariximizin silinməz səhfəsini təşkil etdiyindən öyrənilməsi zəruridir.

Dissertasiyanın dördüncü fəslinin ikinci yarımfəsli **"Azərbaycan ədəbiyyatında Nizami Gəncəviyə həsr olunmuş mənzum dramlar"** adlanır. Ədəbiyyatımızda Nizami Gəncəvinin bədii obrazı Mirvarid Dilbazinin "Məhsəti", Kəmalə Ağayevanın "Məhsəti", Zeynal Xəlilin "Şairin yuxusu" (Gəncə qartalı) və Nəriman Həsənzadənin "Atabəylər" dramı kimi mənzum dramlarda canlandırılmışdır ki, həmin mənzum dramlar bu fəslin tədqiqat obyektinə çevrilmişdir.

Mirvarid Dilbazi Nizami Gəncəvi obrazına da yer verdiyi "Məhsəti" poemasını ssenariləşdirərək həm də mənzum drama çevirmişdir. "Məhsəti" dramı ilə poema arasında bir sıra fərqlər yaranmışdır. Poemada yer alan Aişə obrazı və onunla bağlı inkişaf xətti əsərdən çıxarlaraq əvəzinə Məhsətinin tələbə qızlarla dərs prosesini işıqlandıran səhnə əlavə edilmişdir. Dramın ikinci pərdəsi bu səhnəni əks etdirir. Bu dəyişiklikdən belə ehtimal edirik ki, Mehdi Hüseynin "Nizami" dramına Mirzə İbrahimovun Məhsətinin daş-qalaq edilməsini əsərində əsaslandırmaması iradı Mirvarid Dilbaziyə də öz təsirini göstərmişdir.

Sovet ideologiyasının diqtəsi altında Nizami obrazının da əks olunduğu dram əsərlərindən biri də Kəmalə Ağayevanın "Məhsəti" mənzum pyesidir. Əsər 1958-ci ildə yazılmışdır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarlı yazırdı: "İlk dəfə Naxçıvan Dövlət Musiqili Dram Teatrında

---

[1]İbrahimov M. Nizami draması və tarixi dram məsələsi haqqında. "Ədəbiyyat" qəz. 1942, 15 dekabr, №33, s.3.

[2]Seyidov Y. Mehdi Hüseyn. Bakı: Yazıçı, 1979.

[3]İsgəndərov Ə. Quruluşçu rejissorun qeydləri. "Ədəbiyyat"., 1942, 5 avqust.

[4]Axundova Z.M. Tarixi pyeslərin Azərbaycan teatrında səhnə təcəssümü: s.ü.f.d. Bakı, 2005.

[5]Xələfov Ə.T. "Mehdi Hüseyn" Anadan olmasının 50 illiyi (Biblioqrafiya). Bakı, 1959.

tamaşaya qoyulan bu əsərin premyerası 1964-cü il oktyabrın 24-də oynanıldı.” 1965-ci ildə dövrün tənqidçiləri tərəfindən rəğbətlə qarşılanmışdır: “Kəmalə Ağayeva qələmə aldığı mövzunun mürəkkəbliyinə ciddi bir yaradıcılıq münasibəti bəsləmiş, qüdrətli insan xarakterləri yaratmağa səy etmişdir”.[1]

Kəmalə Ağayevanın “Məhsəti” dramında İlyas Məhsətinin şagirdi kimiçıxış edir. Münasibətlər ustad, şagird əlaqəsi üzərində qurulmuşdur.

Kəmalə Ağayevanın “Məhsəti” dramı ilə Mirvarid Dilbazinin eyni adlı əsəri kiçik fərqlərlə eyni süjetə və eyni ideya istiqamətinə malikdir. Personajlar sisteminə görə də əsərlər yaxından səsləşir. Əsərlərin belə yaxınlığı onların qidalandığı mənbələrin eyniliyindən xəbər verir. Hər iki əsərə M.S.Ordubadinin “Qılınc və qələm” əsərinin təsirini aydın görmək mümükündür.

Azərbaycan sovet dramaturgiyasında Nizami Gəncəvi obrazının təsvir edilməsinin digər nümunəsini də Zeynal Xəlilin dram irsində görürük. 1975-ci ildə “Azərbaycan” jurnalının 6-cı nömrəsində şairin “Gəncə qartalı” adlı mənzum dramı dərc olunmuşdur. Sonralar Z.Xəlil bu əsərə proloq və epiloq əlavə etməklə “Seçilmiş əsərlər”inə (1978) daxil etmişdir. Əsərin kiçik dəyişikliyi ilə personajlar sistemində, ideya istiqamətində və məzmununda da fərqlər özünü göstərir. “Gəncə qartalı” əsərində süjet müstəqim məzmuna malik idisə, “Şairin yuxusu”nda yuxu motivi əsasında inkişaf edir. Təsvir olunan hadisələr gerçək olmayıb, Nizami Gəncəvinin yuxusu kimi təqdim edilir.

“Şairin yuxusu” mənzum dramı özünəməxsusluğu ilə əvvəlki əsərlərdən fərqlənir. Əsərin süjetini yuxu ünsürü motivləşdirir, buna görə də əsər “Şairin yuxusu” adlanır.

Z.Xəlilin “Şairin yuxusu” əsərinin yazılması və üzə çıxarılması haqqında İmran Abbasovun araşdırmalarından maraqlı məlumatlar əldə edirik: “Z.Xəlilin arxivində ən mühüm əsər, şübhəsiz, onun oxucu və tamaşaçılarına son yadigarı olan “Gəncə qartalı” (“Nizami”) pyesidir. Unudulmaz şairin tez-tez xatırladığı və səhnə təcəssümünü görmək arzusunda olduğu bu əsərin “Nizami” adlandırılan ilk variantı 1940-cı ildə, dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ərəfəsində yazılmışdır. Lakin təqribən 33 il sonra, 1973-cü ilin əvvəllərində şair ilk pyesini yenidən, həm də əsaslı surətdə işləmiş və onu “Gəncə qartalı” adlandırmışdır.” Burada XII əsrdə yaşayan dahi şairimiz Nizami Gəncəvi ilə

---

[1] Qafarlı V. Məhsəti Gəncəvi obrazı Azərbaycan səhnəsində. ”Kaspi” qəz., 2013, 24 avqust, № 152, s.11.

Xaqani Şirvaninin əqidə dostluğundan, onların vətənpərvərliyindən, mövcud quqruluşun haqsızlıqlarına qarşı apardıqları mübarizədən söhbət açılır".[1]

"Şairin yuxusu" əsərinin əsas ideyası da digər dram əsərləri kimi insan azadlığının tərənnümündən ibarətdir. Qızıla, şan və şöhrətə aldanmağın sonunun fəlakətlə nəticələnəcəyinin məntiqi bir sonluq kimi qəbul edən dramaturq Nizami şöhrətinin əbədiliyini də məhz onun azad şəxsiyyətində görürdü.

Azərbaycan ədəbiyyatında tarixi dram janrının inkişafında Nəriman Həsənzadənin özünəməxsus yeri vardır. Mənzum tarixi dram kimi xüsusi əhəmiyyətə malik olan "Atabəylər" dramı (1984) elmi tədqiqatda "Səməd Vurğunun "Vaqif" mənzum dramının yarandığı vaxtdan (1938) keçən təxminən qırx ildən artıq zaman ərzində bu janrda ədəbi-mədəni mühitin fövqünə qalxa bilən sanballı bir əsər"[2] kimi dəyərləndirilir.

Nəriman Həsənzadənin "Atabəylər" dramı dövlətçilik ideyasının daşıyıcısı kimi və milli mənafelərin əks etdirilməsi baxımından zamanı qabaqlamış bir sənət əsəridir.

Elmira Əli qızı Mustafayeva yazır: "Əsərdə Nizami və Əcəmi surətləri ilk baxışdan epizodik görünsə də, çox canlı təsir bağışlamış və onların böyüklük ideyası pyesin bütün fabulasına, əsərin ümumu ruhuna hopmuşdur. Əsərin sonunda biz böyük Nizamini, Əcəmini görür, onların dünyaya, ətrafda cərəyan edən hadisələrə mənalı baxışları ilə qarşılaşır, hikmətli sözlərini oxuyuruq".[3]

"Atabəylər" dramı səhnəyə qoyulması ilə ədəbi tənqidin diqqətini çəkmiş, geniş müzakirə olunmuşdur. Mirzə İbrahimov öz məqaləsində əsəri "teatrımızın nailiyyəti" "Azərbaycan səhnə sənətinin ictimai mənalı, cazibədar, bədii keyfiyyətli əsərlərlə zənginləşməsi yolundakı mübarizədə diqqətəlayiq hadisə kimi" [4] dəyərləndirmişdir.

"Atabəylər" dramı eyni zamanda 1989-cu ildə Ziya Bünyadov vəƏbülfəz Rəhimovun müüştərək yazdıqları "Tarixi həqiqətlər... Yoxsa təhriflər" adlı məqalədə tənqid olunmağı sayəsində sonrakı nəşrində daha mükəmməl sima qazanmışdır.

Digər fəsillərdə olduğu kimi sonuncu fəsildə də "Atabəylər" dramının

---

[1]Abbasov İ. Zamanla birlikdə, "Ədəbiyyat və incəsənət" qəz., 1975, 25 yanvar.

[2]Həbibbəyli İ. Müasirlik işığında bədii yanaşma,(Ön söz ). Həsənzadə Nəriman. Seçilmiş əsərləri, 7 cilddə, III c., Bakı: Prometey nəşriyyatı 2011, s. 7.

[3]Mustafayeva E. Nəriman Həsənzadənin yaradıcılığında tarixilik və müasirlik. Bakı, 2010.

[4] İbrahimov M. Atabəylər. "Kommunist" qəz., 1984, 16 yanvar.

ümumi təhlilini səciyyələndirən monoqrafiyalar, xüsusilə, S.Şükürovun, Z.Axundovanın, A.Abdullayevanın tədqiqatları dissertasiyanın elmi tutumunu daha da zənginləşdirmişdir.

Beləliklə, "Atabəylər" dramında Nizami Gəncəvinin ədəbi siması üç epizodda ətraflı şəkildə öz bədii ifadəsini tapmışdır. Nizami bir mütəfəkkirdir, təbibdir, siyasi proseslərə müdaxilə edən söz sahibidir, həm də dünya nemətindən könlünü üzüb guşənişinliyə çəkilmiş bir zahiddir. Nizaminin əsərlərindən yeri gəldikcə misallar gətirilməsi surəti dolğunlaşdırır, əsərin məna gücünü artırır. Azərbaycan dilinin milli mədəniyyətimizin inkişafından kənarda qalması narahatlığının Nizami yaradıcılığında öz ifadəsini tapdığı kimi, dramın da problematikasını zənginləşdirmişdir.

Dissertasiyanın **"Nəticə"**sində əldə olunmuş elmi qənaətlər ümumiləşdirilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:

Nizami Gəncəvinin yazdığı əsərlər bütün dövrdə müxtəlif sahədə çalışan sənətkarlar üçün ilham mənbəyi olmuş, onlara bir-birindən gözəl incəsənət nümunələrini yaratmağa mənbə olmuşdur. Rəssamlar miniatür, qrafika, mozaik, heykəltaraşlıq, xalçaçılıq – bir sözlə, tətbiqi incəsənətin bütün növlərində Nizami Gəncəvinin və onun əsərlərinin motivlərini işləmişlər.

Təbii ki, Azərbaycan ədəbiyyatı da Nizami Gəncəvi dühasına biganə qalmamış, ona demək olar ki, bütün janrlarda əsərlər həsr etmişlər. Hər bir sənətkar öz təxəyyüllünə, oxuculara çatdırmaq istədiyi ideyyaya görə, bəzən də dövrün, rejimin diktəsinə görə Nizami Gəncəvinin bədii obrazına müraciət etmişdir. Bu da Nizami obrazında müxtəlif aspektdən, rakursdan baxılmasına səbəb olmuş və təbii olaraq bəzi əsərlərin zəif, bəzi əsərlərin isə bütün yaradıcılıq parametrlərə uyğun olaraq meydana çıxmasına səbəb olmuşdur.

XX əsrin birinci yarısına qədər ilkin ədəbi-tarixi qaynaqlarda Nizami Gəncəvi haqqında verilən məlumatlar qiymətli bir məxəz kimi qorunaraq yaddaşlardan yaddaşlara ötürülmüşdür. Şair haqqında yazan görkəmli yazıçı və şairlərimiz bu məxəzə sahib çıxaraq öz yaradıcılıqlarında məhz onların sayəsində dahi şairin ölməz abidəsini ucaltmışdırlar.

Poeziyada Nizami Gəncəvinin bədii obrazı ilk dəfə şairin öz əsərlərində yaradılmışdır

Azərbaycan poeziyasında yeri gəldikcə Nizami surətinin təsviri, Nizami şəxsiyyətini tərənnümü XX əsrə kimi özünü göstərmişdir. XIX əsr ədəbiyyatında Nizami xatirəsinin orta əsrlər poeziyasından fərqli cizgiləri üzə çıxır. Əgər orta əsrlərdə Nizaminin mənən yaşadığı, hər zaman şairlərin qəlbində bir ustad kimi diri olduğu vurğulanırdısa, (Ə.Təbrizi, M.Füzuli)

XIX əsrdə ilk dəfə olaraq Nizami xatirəsinə laqeydlik təəssüflə qeyd olunurdu.(S.Ə.Şirvani, M.M.Axundov, Ə.Nəzmi)

XX əsr poeziyasında Nizaminin ədəbi siması parlaq boyalarla canlandırılır, şairin söz dünyasının əbədiyyətindən dönə-dönə söhbət açılırdı. (S.Vurğun, Ə.Kürçaylı, N.Xəzri, N.Rəfibəyli, Hidayət)

XX əsr Azərbaycan ədəbiyyatında lirik-epik əsərlərdə Nizami Gəncəvi obrazı vətənpərvərlik, insanpərvərlik təcəssümü, sufiyanə baxışları ilə, müdrikliyi, azad iradəsi ilə əsrlərin ən qüdrətli şairi kimi öz tərənnümünü tapmışdır. (B.Azəroğlu "Nizami", M.Dilbazi "Məhsəti")

Nizsami Gəncəvinin həyatına və şəxsiyyətinə həsr oliunmuş bədii nəsr nümunələri ilk dəfə XX əsrin 40-cı illərindən görünməyə başladı ki burada da şairin tədqiqatçıları olan H.Araslı və M.S.Ordubadinin fəaliyyətləri təqdirəlaiqdir.

***Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:***

1. Azərbaycan klassik poeziyasında Nizami Gəncəvi obrazı // BDU, "Dil və ədəbiyyat", Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2013, №4 (88), s.219-225.
2. Əssar Təbrizinin "Mehr və Müştəri" poemasında Nizami Gəncəvi ədəbi şəxsiyyətinin tərənnümü // "Filologiya məsələləri", Beynəlxalq elmi-nəzəri jurnal, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, 2013, № 9, s.353-358.
3. Rüstəm Əliyevin Tədqiqatının Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi Obrazının formalaşmasına təsiri (Oqtay Salamzadənin Oqtay Salamzadənin "Əsrlərin sirri" romanı əsasında) / İlyas Əfəndiyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Respublika Elmi Konfransının Materialları, Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti, "Elm və Təhsil", 2014, s.205-210.
4. Nizami Gəncəvinin obrazını formalaşdıran ilkin ədəbi qaynaqlar // "Sivilizasiya", Elmi-nəzəri jurnal, Bakı Avrasiya Universiteti, Bakı, 2014, №1, s.63-71.
5. Nəriman Həsənzadənin "Atabəylər" dramında Nizami Gəncəvi obrazı: Tarixi gerçəklik və bədii həqiqət / AMEA Rəyasət Heyyəti, Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq Elmi Konfrans Materialları, Bakı, Azərbaycan, 2014, s.497-499.

6. Azərbaycan ədəbiyyatının lirik-epik əsərlərində Nizami Gəncəvi idealı // "Filologiya Məsələləri", Beynəlxalq elmi-nəzəri jurnal, AMEAM. Füzuli adına Əlyazmalar İnstitutu, 2014, № 2, s. 288-299 .

7. Azərbaycan ədəbiyyatında Nizami Gəncəviyə həsr olunmuş ilk hekayələr // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri", Bakı, 2014, №2, s.209-212.

8. Nəriman Həsənzadənin "Atabəylər" dramının presonajlar sistemində Nizami Gəncəvi obrazının yeri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransın materialları, Qafqaz Universiteti, Bakı, s.244-245.

9. Художественное изображение гробницы Низами Гянджеви в Азербайджанской литературе // "Вестник Казну" Казахский Националь-ный Университет имени Аль-Фараби, 4-5 (150-151) 2014, с.305-310.

10. Mehdi Hüseynin dramaturgiyasında Nizami Gəncəvi obrazı // "Tağıyev oxuları" Elmi məqalələr məcmuəsi, Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Unversiteti, Bakı: Mütərcim, 2014, №2, s.160-167.

11. Azərbaycan ədəbiyyatında Nizami Gəncəviyə həsr olunan bədii əsərlərin tədqiqi tarixi // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Unversitetinin "Elmi Əsərlər", Dil və Ədəbiyyat Seriyası, Bakı: Mütərcim, 2014,, s.105-112.

12. Azadə Rüstəmovanın tədqiqatlarında Nizami Gəncəvinin ədəbi siması / AMEA-nın müxbir üzvü R.Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi Konfrans.AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, 2014, s.41-44.

13. Поэтические драмы в Азербайджанской литературе, посвящен

14. ные Низами Гянджави // "Гилея": науковий висник. Киив, 2015, Випуск 94, №3, s.320-326.

15. Nizami Gəncəvinin əsərlərində müəllif obrazı / Gənc tədqiqat-çıların III Beynəlxalq konfransı Qafqaz Universiteti, 2015, s. 932-933.

16. Poeziyamızda Nizami Gəncəvi obrazı (XX əsrin 20-30-cu illəri) / Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 2015, s.233-235.

**Алимухтар Гасан оглы Мухтаров**

# ОБРАЗ НИЗАМИ ГЯНДЖАВИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

## РЕЗЮМЕ

Творчество Низами Гянджави, занимающее уникальное место в истории мировой культуры, произведения которого считаются одним из редких сокровищ мировой поэзии, является одним из новых, оригинальных этапов в развитии Азербайджанских художественно-эстетических идей. В связи с увеличением интереса к изучению творений поэта, идентичность его литературной поэзии саздание его в художественного образа стало центром литературного внимания.

Диссертация состоит из «Введения», четырех глав, «Заключения», используемых списков литературных ссылок. Глава I называется «Изучение истории Низами Гянджави в Азербайджанской литературе». В этой главе говорится сведениях о Низами, предоставленными источниками XIX века, посвященных изучению истории Низами Гянджави.

Глава II называется «Воспевание художественной личности Низами Гянджави в Азербайджанской поэзии». В этой изучается лирико-эпические произведения посвященные великому поэту начиная от средневековья до наших дней и

Глава III называется «Изображение образа Низами Гянджави в контексте содержании художественных образов». В этой главе анализируются эпические произведения, написанные о Низами Гянджави, также исторические романы и документальные рассказы.

Глава IV называется «Изображение образа Низами Гянджави в Азербайджанской драматургии». Образ Низами Гянджави в этой главе изучался в контексте прозы и драмы в стихах.

Научные выводы исследования сведены в заключении диссертании.

**Alimukhtar Gasan oglu Mukhtarov**

# NIZAMI GANJAVI'S CHARACTER IN AZERBAIJANI LITERATURE

## SUMMARY

Nizami Ganjavi's creativity which has a special place in the history of world culture and is considered unique pearls of world poetry treasure, establishes a new, original period in the development of Azerbaijan poetic-aesthetic thought. The interest and need for studying the poet's creativity has increased in the different periods, and his literary personality has been the focus of attention in literature and turned over a literary character.

The dissertation work consists of "Introduction", four chapters, summary and list of literature.

Chapter I is called "The history of studying "Nizami Ganjavi" character in the AzerbaijaniLiterature". In this chapter, the information given in the medieval memoirs and XIX century resources is involved to the investigation and the research of the history of literary works devoted to Nizami Ganjavi takes place.

Chapter II is called "The literary praise of "Nizami Ganjavi" personality in the Azerbaijan Poetry". The lyric-epic works devoted to the genius poet from the medieval till now is investigated in this chapter.

Chapter III is called ""Nizami Ganjavi" character in the content of the literary prosaic samples". The epic works written about Nizami Ganjavi, various prosaic samples, historical novels, non-fiction novelettes are analyses in this chapter.

Chapter IV is called "" Nizami Ganjavi" character in Azerbaijan Drama". "Nizami Ganjavi" character is investigated in the content of prosaic and poetical dramas in this chapter.

The scientific-theoretical results of the dissertation are generalized in the conclusion.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**АЛИМУХТАР ГАСАН оглы МУХТАРОВ**

# ОБРАЗ НИЗАМИ ГЯНДЖАВИ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

5716.01– **Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени доктора философии по филологии

**БАКУ – 2015**